ƏN TEZİ *bir göz qırpımı* VƏ ƏN UZAĞI *1 saat*DAN SONRA GÖRÜŞƏNƏDƏK!

Həcc 47.(Ya Rəsulum!) Onlar səni tələsdirib əzabın tez gəlməsini istəyirlər. Allah Öz vədinə əsla xilaf çıxmaz! Rəbbinin dərgahında bir gün sizin saydığınızın (hesabladığınız vaxtın) min ili kimidir!

AYƏ, …dərgah… ZAMAN HESABINI, YER ÜZÜ ZAMAN HESABI İLƏ - …sizin saydığınız…LA - MÜQAYİSƏDƏ …dərgah…IN 1 GÜNÜNÜ YER ÜZÜNÜN 1000 İLİ KİMİ TƏQDİM EDİR.BELƏ ÇIXIR Kİ, …dərgah…DA BİR GÜNƏ OLAN, YER ÜZÜNDƏ 1000 İLƏ OLUR.

İL = gün MÜNASIBƏTİNİ ÇEVİRSƏK gün = saniyə MÜNASİBƏTİNƏ.ONDA YER ÜZÜ ZAMAN HESABI VƏ YA ...sizin saydığınız...LA 1GÜN KEÇƏNDƏ , ...Rəbbinin dərgahında … NEÇƏ SANİYƏ KEÇƏR?

1 gün=24 saat.

24 saatı dəqiqəyə çevirsək: 24 saat x 60 dəq.= 1440 dəq.

1440 dəqiqəni saniyəyə çevirsək: 1440 dəq. x 60 san.= = 86.400 san.

1000 ili günə çevirsək: 1000 il x ~365 gün = ~365.000 gün.

86.400 san. : ~365.000 gün = ~ 0.23671233 san. / gün. = ~ 0.237san. / gün.

ADİ HESABLAMA TƏSDİQ EDİR Kİ, ...Rəbbinin dərgahında … TƏQRİBƏN 0.237 saniyədə YAŞANANIN YER ÜZÜNDƏ YAŞANMASI ÜÇÜN 1 GÜN KEÇİR. (Rum 55, Yunus 45)

İNDİ İSƏ YER ÜZÜNDƏ YAŞANAN ORTA ÖMÜRÜN ...Rəbbinin dərgahında … KI ZAMAN HESABI İLƏ NƏ QƏDƏR ETDİYİNİ HESABLAYAQ.

YER ÜZÜ ZAMAN HESABI İLƏ ORTA ÖMÜR HƏDDİNİ 70 İL GÖTÜRSƏK VƏ ONU GÜNƏ ÇEVİRSƏK:

70 il × ~365 gün = ~25.550 gün.

70 il = ~25.550 gün YAŞAMIŞ OLAN İNSAN ...Rəbbinin dərgahında …KI ZAMAN HESABI İLƏ NEÇƏ İL YAŞAMIŞ HESAB OLUNAR?

25.550 gün × 0.237 san (yer üzünün bir günü …dərgahın… ~ 0.237 saniyəsinə bərabər olduğunu yuxarıda hesablamışdıq)= ~6055.35 san

6055.35 saniyəni dəqiqəyə çevirsək:

6055.35 san : 60san. = ~100,9225 dəq.= təqribən 101 dəqiqə.

101 dəqiqəni saata çevirsək:

101 dəq : 60 dəq. = ~1,6833 saat= təqribən 1.7 saat.

YUNUS 45- DƏ +

Yunus 45. (Allah müşrikləri) gündüz bir saat belə (dünyada) olmamışlar kimi, bir yerə toplayacağı gün (qiyamət günü) onlar bir-birini tanıyacaqlar. Allahla qarşılaşacaqlarını yalan hesab edənlər, sözsüz ki, ziyana uğrayacaqlar. Onlar heç doğru yolda da deyildilər.

+ …gündüz bir saat belə (dünyada) olmamışlar… – İNFORMASIYASI VERİLİR.

GÜN= GÜNDÜZ + GECƏ.ONDA :

1,7 saat : 2 = 0,85 saat

0,85 saatı dəqiqəyə çevirsək:

0,85 saat x 60 dəq. = 51 dəq.

ALINAN NƏTİCƏ YER ÜZÜ ZAMAN HESABI İLƏ YAŞANAN 70 il ÖMÜRÜN ...Rəbbinin dərgahında…KI ZAMAN HESABI İLƏ DOĞRUDANDA TƏQRİBƏN 51 dəq. VƏ YA GÜNDÜZÜN ...bir saat...I QƏDƏR OLMASINI ORTAYA QOYUR.

BELƏLİKLƏ ...gündüz bir saat belə (dünyada) olmamışlar kimi... İNFORMASİYASI ÖZÜNÜN TAM TƏSDİQİNİ TAPIR.

Bəqərə 16, Bəqərə 86 , Fatir 29,Ənkəbut 64.

EYNİ ZAMANDA BU İNFORMASİYA Fecr 24 VƏ Muminun100- e +

Fəcr 24. O: “Kaş ki, mən əvvəlcədən (axirət) həyatım üçün (yaxşı əməllər) edəydim!” – deyəcəkdir.

Muminun100. Bəlkə, (indiyə qədər) zay etdiyim ömrüm müqabilində yaxşı bir iş görüm! Xeyr, bu onun dediyi boş bir sözdür. Onların önündə dirilib duracaqları günə (qiyamət gününə) qədər maneə vardır.

+ DAYANARAQ DA ÖZÜNÜ DOĞRULDUR.ONA GÖRƏ Kİ, İNSAN ÜÇÜN DÜNYASINI DƏYİŞƏN ANDAN ZAMAN DAYANIR.

... Onların önündə dirilib duracaqları günə (qiyamət gününə) qədər maneə vardır…DAN BELƏ BİR NƏTİCƏ ÇIXIR Kİ, İNSAN DÜNYASINI DƏYİŞƏN ANDAN O İNSAN ÜÇÜN ZAMAN SIFIRLANIR.

BU MƏNADA HƏR BİR İNSANIN ÖLÜM ANINDAN QİYAMƏT GÜNÜNƏDƏK YER ÜZÜNDƏ 1 saniyə VƏ YA MİLYARDLARLA İLLƏR KEÇSƏDƏ HEÇ BİR FƏRQ ETMİR. ...Rəbbinin dərgahında…KI (qiyamət günü) O GÜNDE HƏR BİR İNSAN ÜÇÜN ONUN ÖMRÜ YER ÜZÜNDƏ NEÇƏ İL YAŞAMASINDAN,HANSI İLDƏ, HANSI GÜNDƏ DÜNYASINI DƏYİŞMƏSİNDƏN ASILI OLMAYARAQ 1 SAATA QƏDƏRDİR.

BU 1 SAATIN HƏR ANINDA GƏLƏ BİLƏCƏK ÖLÜMDƏN (İNSAN İSTƏR YENİ DOĞULSUN İSTƏRSƏDƏ 90 YAŞINDA OLSUN FƏRQ ETMƏZ) HEÇ KİMİN QARANTİYASI OLMADIĞINDAN ALLAH QURANDA TƏKRAR- TƏKRAR QİYAMƏT SAATINI XATIRLADIR:

Səba 30.(Onlara) belə de: “Sizə vəd olunmuş bir gün (qiyamət günü) vardır ki, ondan bircə saat belə nə geri qalar, nə də irəli keçə bilərsiniz!”

Əhkaf 35. (Ya Rəsulum!) Peyğəmbərlərdən əzm sahibləri olanların səbr etdiyi kimi, sən də səbr et. (Müşriklərə) tez (əzab) gəlməsini istəmə. Onlar vəd olunduqlarını (əzabı) görəcəkləri gün gündüzün ancaq bir saatı qədər (dünyada) qaldıqlarını sanacaqlar…

Qəmər 46. Xeyr, onların əsl əzab vaxtı qiyamət saatıdır…

Nun və ya Qələm 5. (Tezliklə) sən də görəcəksən, onlar da görəcəklər,

Taha15.O saat (qiyamət saatı) mütləq gələcəkdir. Mənim onu az qala açmağım gəlir ki, hər kəs etdiyi əməlin əvəzini alsın.

Nəhl 77. Göylərin və yerin qeybini  bilmək ancaq Allaha məxsusdur. Qiyamətin qopması (əmri) bir göz qırpımında, yaxud daha tez olar… .

Ənam 31. Allahın hüzurunda duracaqlarını inkar edən kimsələr, həqiqətən, ziyana uğramışlar. Belə ki, saat  qəflətən başlarının üstünü aldığı zaman onlar günahlarını dallarında daşıyaraq deyəcəklər: “Dünyadakı təqsirlərimizə görə vay halımıza!” Bir baxın, daşıdıqları şey (günah yükü) necə də pisdir!

və.s.

…saat  qəflətən başlarının üstünü aldığı zaman…NIN MƏNASINA YÜKLƏNDİKDƏ İSƏ QORXUNÇ BİR ZAMAN KƏSİYİ İLƏ QARŞILAŞMALI OLURUQ.

İSTƏR OL! ANINDAN BU ANADƏK YER ÜZÜNDƏ YAŞAMIŞ İNSANLAR OLSUN VƏ YA BU AN YER ÜZÜNDƏ YAŞAYANLAR OLSUN VƏ YA BU ANDAN SONRA  QİYAMƏT GÜNÜNÜN BAŞLANMASINA BİR AN QALINCAYA QƏDƏR YER ÜZÜNDƏ YAŞAYACAQ İNSANLAR OLSUN FƏRQ ETMƏDƏN HAMISINI QİYAMƏT GÜNÜNDƏN AYIRAN ZAMAN KƏSİYİ BİR ANDIR.YƏNİ HƏR BİR İNSAN HƏR AN ÖLƏ BİLƏR VƏ O AN DA QİYAMƏTDİR!

DÜNYANI DƏYİŞMƏK İSƏ MÜTLƏQ OLARAQ GÜNÜN 24 SAATININ HƏR HANSI BİRİNƏ DÜŞÜR VƏ SAATLARI BİR YERƏ TOPLADIQDA  1 GÜN EDİR.( ... bir yerə toplayacağı gün (qiyamət günü) onlar bir-birini tanıyacaqlar.... Yunus 45).

GÖRÜNDÜYÜ KİMİ  *QİYAMƏT SAATI*  İLƏ  *QİYAMƏT GÜNÜ* FƏRQLİ ANLAYIŞLARDIR Kİ , İLAHİYYATÇISINDAN TUTMUŞ NAĞILÇISINA QƏDƏR BU GÜNƏDƏK KİMSƏ BUNUN

FƏRQİNDƏ OLMAMIŞDIR.QURANIN ORTAYA QOYDUĞU BU HİKMƏTİ DƏRK EDƏN BİR İNSANI ÖLDÜRSƏN DƏ O QURANIN MƏNA DƏYİŞDİRƏCƏK BİR VURĞUSUNA BELƏ TOXUNMADAN ANCAQ ONUNLA YÖNƏLƏR.

BU MƏNADA BU AN DÜNYADA YAŞAYAN HƏR BİR İNSAN HƏR AN ,OL! ANINDAN BU ANADƏK YER ÜZÜNDƏ YAŞAMIŞ İNSANLARA, BU AN YER ÜZÜNDƏ YAŞAYAN İNSANLARA, BU ANDAN SONRA QİYAMƏT GÜNÜNÜN BAŞLANMASINA BİR AN QALINCAYA QƏDƏR YER ÜZÜNDƏ YAŞAYACAQ İNSANLARA SADƏCƏ BELƏ DEYƏ BİLƏR:

- ƏN TEZ İ *bir göz qırpımı* VƏ ƏN UZAĞI *1 saat*DAN SONRA GÖRÜŞƏNƏDƏK!